Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası




# Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü

23 Aprel – Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü münasibəti ilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait

**Bakı – 2023**

**Tərtibçi:** **Aynurə Əliyeva**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü** münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / tərt.ed. A.Əliyeva; red. R.Məmmədli; ix. red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2023. 34s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2023**

## Giriş

*Dünyada nə qədər kitab var belə*
*Çalışıb əlləşib gətirdim ələ.*
*Oxudum, oxudum, sonra da vardım*
*Hər gizli xəznədən bir dürr çıxardım.*

Kitab bəşər mədəniyyətinin inkişafında mühüm rol oynayan ən böyük kəşflərdən biridir. Əfsanələr, əsatirlər, rəvayətlər, qəhrəmanlıq dastanları, əmək mahnıları əvvəllər şifahi formada yazılmış, sonralar isə daş, dəri və ağac üzərinə yazılaraq bu günə qədər gəlib çatmışdır. Əlifba və yazının yaranması, kağızın kəşfi, əlyazmalar, çapçılığın ixtira edilməsi, kitabxanaların yaranması kitabın inkişaf mərhələsində ən mühüm səhifələrdir. Kitabın insan həyatına daxil olması, kitabların çoxalması həm də müəlliflik hüququnun yaranması zərurətini meydana gətirmişdir. Orta əsrlərdə Azərbaycan şairləri öz şeirlərinin sonunda poetik adlarını işlətməklə müəlliflik hüququnun səmərəli qorunma formasını yaratmışlar.

Kitab və kitab mütaliəsinin önəmini nəzərə alaraq YUNESKO 1995-ci il noyabrın 15-də Parisdə keçirilən 28-ci sessiyasında hər il aprel ayının 23-nü “Ümumdünya Kitab və Müəllif Hüquqları Günü” elan etmişdir.

23 Aprel – Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü 1995-ci ildə UNESCO tərəfindən təsdiq edilmişdir. Həmin gün dünya ədəbiyyatında simvolik tarixdir. 23 Aprel - Uilyam Şekspir, Migel Servantes və İnka Qarsilaso dela Veqa kimi bir sıra görkəmli ədiblərin vəfat etdiyi gündür.
UNESCO kitabları və müəlliflik hüququnu təbliğ etməklə yaradıcılığın, mədəni müxtəlifliyin və bütün fəaliyyət sahələrində biliklərə bərabərhüquqlu əlçatımlığın tərəfdarı kimi çıxış edir, kitab işinin və qiraətin təşviqinə kömək edir. Ölkəmizdə də bu tarixi gün geniş qeyd olunur. F.Köçərli

adına Respublika Uşaq Kitabxanası olaraq kitab və oxunun təbliğatı işlərinin yaxşılaşdırılması, oxucularda oxu vərdişini möhkəmləndirmək məqsədi ilə 23 Aprel – Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü ilə bağlı vəsait yazmağı özümüzə borc bildik. Vəsait iki hissədən ibarətdir. I hissə ***"Kitaba məhəbbət, oxu mədəniyyəti"*** adlanır. II hissədə isə sözü gedən əlamətdar gün ilə bağlı tədbirlərdən söhbət açılır. Təqdim etdiyimiz bu vəsaitlə uşaqların intellektual səviyyələrinin artmasında böyük rol oynayan kitabxanaçıları oxucu cəlbində müasir tədbir istifadə eməklə maarifləndirmək istəyirik.

## *I Bölmə*

Ənənəvi olaraq, hər il UNESCO bu gün münasibətilə geniş ictimaiyyətə müraciət eidr. Bu ilki müraciət kitablara həsr olunub.

UNESCO-nun yaydığı məlumatda aşağıdakılar qeyd olunub:
"Oxuyun... Özünüzü heç vaxt tənha hiss etməyəcəksiniz.
Nə üçün oxumaq indiki zamanda həmişəkindən daha vacibdir?

Zehnimizi və yaradıcılığımızı stimullaşdırarkən kitabların gücü həmişəkindən daha çox təcridlə mübarizə, insanlar arasındakı əlaqələri gücləndirmək, görüş dairəsini genişləndirmək üçün istifadə olunmalıdır.

Aprel ayı və bütün il boyu təkbaşına və ya uşaqlarınızla birlikdə oxumağa vaxt ayırmaq vacibdir. Kitab oxumağın vacibliyini qeyd etmək, uşaqların oxucu kimi böyüməsinə şərait yaratmaq və ömür boyu ədəbiyyata sevgi və iş dünyasına inteqrasiyanı təşviq etmək vaxtıdır.

Oxumaqla və 23 Aprel Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününü qeyd etməklə, məsafəyə baxmadan başqalarına təxəyyül sayəsində səyahətə çıxa bilərik.

Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününə hazırlaşarkən, UNESCO özünüzə çağırış etməyi, yeni mövzular, formatlar və ya qeyri-adi janrları araşdırmağı təşviq edir. Məqsədimiz insanları oxumağa cəlb etmək və bundan həzz almaqdır! İndi fürsət budur: Bu il Ümumdünya Kitab və Müəllif Hüquqları Günü münasibətilə, UNESCO *"bookface challenge"* yaratdı.

Kitabın üzlüyü inanılmaz dərəcədə vacibdir və bizim kitab almaq qərarımızda mühüm rol oynayır. Biz hamımız kitabın üz qabığına son dərəcə tənqidi yanaşırıq. Biz həmişə sərlövhənin yaxşı təqdim olunmasından məmnun oluruq, belə ki, yaxşı bir kitab üzlüyüsərlövhə haqqında yaxşı fikri yarada və ya poza bilər.

Belə bir şəraitdə biz tələbələri, müəllimləri, dünyanın müxtəlif yerlərindən olan oxucuları, eləcə də kitab sənayesi nümayəndələrini və kitabxana xidmətlərini bu çağırışa qatılaraq oxumağa olan sevgilərini ifadə etməyə dəvət edirik."

Azərbaycanda bu əlamətdar tarix 1997-ci ildən başlayaraq hər il qeyd edilir.

Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününün qeyd edilməsi kitablardan və mütaliədən zövq almağı təşviq edir. Keçmişlə gələcək arasında əlaqə, nəsillər və mədəniyyətlər arasında bir körpü olan kitabın sehirli gücünü tanımaq üçün hər il 23 Aprel tarixində bütün dünyada tədbirlər keçirilir. Bu münasibətlə UNESCO və kitab sənayesinin üç əsas sektorunu naşirləri, kitab ticarətçilərini və kitabxanaları təmsil edən beynəlxalq təşkilatlar növbəti ilin 23 Aprel tarixinədək Günün qeyd edilməsini öz təşəbbüsləri vasitəsilə təmin etmək üçün şəhərlərdən birini Ümumdünya Kitab Paytaxtı kimi seçirlər.

23 Aprel – dünya ədəbiyyatında simvolik tarixdir. Bu tarix kitablara və müəlliflərə dünya miqyasında ehtiram göstərmək, hər kəsi bəşəriyyətin məkan və zaman sərhədlərini aşaraq ideyaları paylaşmaq üçün ən gözəl ixtira, həmçinin yoxsulluğun aradan qaldırılması və sülhün bərqərar edilməsininbaşlıca qüvvəsi olan – kitabları əldə etməyə təşviq etmək məqsədi ilə 1995-ci ildə Parisdə keçirilmiş UNESCO-nun Baş Konfransının təbii seçimi idi.
UNESKO öz fəaliyyəti dairəsində kitabları və müəlliflik hüququnu təşviq edərək - "Ədəbiyyatın Kreativ Şəhərləri" şəbəkəsindən tutmuş savadlılığın təşviqinə, mobil tədrisə, elmi biliklərə və təhsil resurslarına açıq girişin təkmilləşdirilməsinədək - yaradıcılığı, müxtəlifliliyi və biliklərə bərabər səviyyədə əlçatımlığı dəstəkləyir.

Müəlliflər, naşirlər, müəllimlər, kitabxanaçılar, ictimai və özəl müəssisələr, humanitar QHT-lər və KİV-lərin, həmçinin birlikdə işləmək həvəsi olan bütün maraqlı tərəflərin də aktiv şəkildə cəlb olunması ilə Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü dünyanın hər yerində milyonlarla insanı bir araya gətirən platformaya çevrilib.

Hər il UNESCO-nun Baş qərargahında böyük bayram tədbiri keçirilir. Kitab ticarətçiləri, nəşriyyat şirkətləri və rəssamlar kitablara və mütaliəyə olan sevgilərini gənclərə praktik seminarlar keçirmək vasitəsilə (mətbəə, illüstrasiya, kitab cildlənməsi, manqa stili və s.) bölüşmək üçün dəvət olunur.

Qeyd etdiyimiz kimi bütün dünyada olduğu kimi ölkəmizdə də bu tarixi gün geniş qeyd olunur. Bu münasibətlə kitabxanada sərgi  təşkil olunur. Sərgidə 23 Aprel Ümumdünya Kitab və Müəlliflik Hüququ Günündən bəhs edən ədəbiyyatla dövrü mətbuat materialları qoyulur. Həmçinin sərgidə görkəmli şəxsiyyətin 23 Aprel

Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününü ilə bağlı söylədiyi kəlamlara yer verilir. Sərgiyə müxtəlif başlıqlar, verilə bilər: "Uşaqlar üçün gərəkli kitablar", "Kitab-alternativ dünya", "Kitaba məhəbbət, oxu mədəniyyəti", "Sözün tarixi", "Ən ali bayram-kitab bayramı", "Uşaqlar üçün gərəkli kitablar", "İnsanların kitabla bayramlaşması" və s.

***Görkəmli şəxsiyyətlərin 23 Aprel Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü haqqında söylədikləri:***

Kitablar bizi ötən əsrlərin mənəvi varisi edir.

*N.Vəzirov*

Kitab sənin ilk dostundur.

*M.Ə.Sabir*

Kitab toplamaq yaxşı işdir, onları oxumaq isə daha faydalıdır.

*Frančesko Petrarka*

Kitaba malik olmamaq, əqli yoxsulluğun ən yüksək dərəcəsidir.

*C.Reskin*

Kitabxana insan ruhunun bütün zənginliklərinin xəzinəsidir.

*Q. V. Leybtnis*

Kitablar da dost kimidir, az fəqət yaxşı seçilmiş olmalıdır.

*S.J.Harris*

Kitablar, heç solmayacaq bitkilərdir.

*Herrick*

Kitablar həyatım, təcrübələrim isə müəllimimdir.

*A.Avqustin*

Kitablar, itmiş başların abidələridir.

*Sir Villiam Davenant*

Kitablar sivilizasiyanın nümunəsidir. Kitabsız ədəbiyyat, tarix itər. Həyati incəliklər olan lirika, psixoloji və elmi biliklər mənasız olar.

*Henri Devid Toro*

Kitabları yandırmaqdan daha pis şey onları oxumamaqdır.

*Rey Bredberi*

Kitabsız bir ömrün nə mənası var.

*Səməd Vurğun*

Kitabsız qalmaq çörəksiz qalmaqdan çətindir.

*V.Kubarev*

Kitabsız yaşamaq; kor, kar, dilsiz yaşamaqdır.

*Seneka*

Qədim kitabların füsunkar təbiəti şərabı andırır.

*A.S.Qrin*

Qəpiklər manat əmələ gətirdiyi kimi, oxumaq da bilik əmələ gətirir.

*V.L.Dal*

Mütaliə insanları bilikli, söhbətcil və hazırcavab edir.

*Frensis Bekon*

Kitab heç aldatmayan bir yoldaşdır.

*Guilbert De Pixrecourt*

Kitab hələ də müqəddəsdir mənim üçün. Söz hələ də mühüm və hərf hələ də müəmmadır.

*Əlif Şəfəq*

Kitab həyatın ən uzaq və qaranlıq yollarında insana işıq bəxş edən əfsanəvi çıraqdır.

*A.M.Upit*

Kitab insanı kainatın sahibi edir.

*P.A.Pavlenko*

Kitab mənim üçün, tacdan qiymətlidir. Kitablarım mənə çatacaq qədər böyük bir krallıqdır.

*V.Şekspir*

Kitab ol, hamıya açılma; qoy səni ancaq anlayanlar oxusun!

*Əbu Turxan*

Kitab olmayan ev ruhdan ayrılan bədənə bənzər. Kitabsız ev ürəksiz bədəndir.

*Siseron*

Kitab ruhu qidalandırır, insanı ucaldır və möhkəmləndirir.

*U.M.Tekkerey*

Kitab ruhun dərmanıdır.

*Yapon atalar sözü*

Kitab təfəkkürün övladıdır.

*C.Svift*

Kitab təfəkkürün yorulmayan qanadlarıdır.

*Aybek*

Kitab, tək ölümsüzlükdür.

*Rufus Choate*

Kitablar olmasaydı, mən səfalət və alçaqlıq içində qərq olardım.

*Maksim Qorki*

Kitab bir limandı mənim üçün. Kitablarda yaşadım və kitablardakı insanları küçələrdəkindən daha çox sevdim.

*Cemil Meriç*

Kitab bir nəslin o biri nəslə qoyub getdiyi mənəvi vəsiyyətdir. Kitab nəsillərin bir-birinə vəsiyyətidir. Kitab vasitəsilə biz həqiqətlər və rəzalətlər mülkünə daxil oluruq.

*A.İ.Gertsen*

Kitab elmlərin nəticəsi olmalıdır, elmlər kitabın yox. Kitab insan üçün mənəvi qidadır. Kitab zamanın dalğaları üzərində səyahət edən və öz qiymətli yükünü ehtiyatla nəsillərdən nəsillərə yetirən fikir gəmisidir.

*Dmitri Likhachev*

## *II Bölmə*

Bununla yanaşı kitabxanada 23 Aprel Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününü ilə əlaqədar bir sıra tədbirlər keçirilə bilər. Bunlardan biri də *"Kitab-alternativ dünya"* adlanan konfransdır. Tədbiri yuxarı sinif şagirdlərinin iştirakı təşkil etmək mümkündür. Konfransdan əvvəl onun proqramı tərtib olunmalı, konfransın keçiriləcəyi dəqiq vaxt müəyyən olunmalıdır. Proqramda konfransda çıxış edərək qonaqların, tarixçilərin, siyasətçilərin və şagirdlərin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçiriləcəyi dəqiq vaxt məkan və zaman qeyd olunur. Konfrans zamanı 23 Aprel Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününü ilə bağlı kitab və digər yazılar yazmış jurnalist, yazıçı və şairlərin çıxışları dinlənilir. Oxucu konfransının planını sizə təqdim edirik:

1. Giriş hissə (23 Aprel Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününün yaranması və bayram olaraq qeyd edilməsi haqqında məruzə).
2. "23 Aprel Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününü" haqqında kitabxana rəhbərliyinin, jurnalist, yazıçı və tarixçilərin çıxışları.
3. Yuxarı sinif şagirdlərindən ibarət olan oxucuların 23 Aprel Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününü haqqında məruzələri.
4. Konfransın yekunu.

***Kitabxanaçı:*** -23 aprel tarixinin dünya ədəbiyyatı üçün simvolik olmasını kitab dostları daha yaxşı bilir. Həmin gün söz sənəti dahilərindən Şekspir, İnka Qarsilaso de la Veqa dünyasını dəyişib. Moris Droqon, X.Laksness, Vladimir Nabokov, Maniel Mexia Valeho kimi korifeylər isə aprelin 23-də dünyaya göz açıblar. 1995-ci ildə Parisdə keçirilən UNESCO-nun Baş Konfransında ədəbiyyat üçün simvolik

olan 23 aprel Kitab və Müəlliflik Hüquqları Günü kimi təsdiqlənib. “Don Kixot” romanının ilk dəfə nəşr olunmasının 400 illiyi ilə əlaqədar keçirilən tədbir də həmin tarixə təsadüf etmişdir və beləliklə, 23 aprel əsl kitab bayramıdır!

Fəaliyyətə başladığı gündən klub və kitabxanalar mədəniyyət müəssisələri kimi insanların asudə vaxtının səmərəli keçməsində xüsusi rol oynayıb. Lakin sovetlər dönəmində klubla kitabxananın iş prinsipləri fərqli idi: klub yığıncaq və konsert, kitabxana isə oxucu auditoriyası kimi fəaliyyət göstərirdi.

UNESCO-nun Baş direktoru İrina Bokovanın Ümumdünya Kitab və Müəlliflik Hüquqları Günü ilə əlaqədar hələ 2014-cü ildəki müraciətində deyilir ki, çap edilmiş sözün tarixi - insanlığın tarixidir. Şəxsiyyətin özünütəsdiqində və sosial islahatların həyata keçirilməsində kitabın təsir imkanlarının analoqu yoxdur. Şəxsi təəssüratları əks etdirərək və eyni zamanda dərin sosial təzahür forması olaraq, kitablar insanlar arasında, cəmiyyətlər daxilində dövrlərin dialoqunun formalarının müxtəlifliyini təmin edir.

Ümumiyyətlə, kitab, müəllif və müəlliflik hüququ anlayışları yaranandan bir-biri ilə qırılmaz təmasda olub. “Yaradıcıdan, müəllifdən - əlyazmaya, kitaba, əlyazmadan, kitabdan - müəlliflik hüququna” - bu üzvi əlaqələr və formul tarixi ardıcıllıqla yanaşı, müəlliflik hüququnun yaradıcılıqdakı əhəmiyyətini göstərir. Bugünkü rəqəmsal dünyanın köklü dəyişikliklərinə baxmayaraq, kitab yenə də öz əhəmiyyətini qoruyub saxlamaqdadır. Nizami Gəncəvinin “tükənməz mənəvi qida”, Şekspirin “tacdan qiymətli”, Mirzə Ələkbər Sabirin “ilk dostum”, Həsən bəy Zərdabinin “qiymətli dəfinə” adlandırdıqları kitab bilik mənbəyi olaraq qalmaqdadır. Dünya mədəniyyətinin inciləri sırasında

Azərbaycanın "Kitabi-Dədə Qorqud"unun yerini isə heç bir elektron kitab tuta bilməz.

Kitab zaman-zaman hər kəsin dostu olub. Kitabların yaratdığı ünsiyyəti, onların bağladığı ülfəti və verdiyi dərsi olduğu kimi dərk etmək hər gələn yeni nəslin mənəvi borcudur. Axı kitablar bizim dilimiz, elmimiz, birliyimiz-diriliyimizdir.

*Kitabxanaçının çıxışından sonra konfransda iştirak edən məruzəçilərə söz verilir.*

**I məruzəçi:** Azərbaycan kitab mədəniyyətinin X-XII əsrlərdən başlayaraq yeni inkişaf mərhələsinə qədəm qoyması ədəbiyyat, coğrafiya, təbabət, astronomiya, tarix, fəlsəfə, məntiq və elmin başqa sahələrinə aid əsərlərin yaranmasına səbəb olmuşdur. Bu dövrdə Azərbaycan kitab tarixini zənginləşdirən böyük alimlər, şairlər yaşamışdır. Eyni zamanda bu dövrdə yaşamış Xətib Təbrizi, Məhsəti Gəncəvi, Nizami Gəncəvi, Əfzələddin Xaqani, Nəcməddin Naxçıvani, Hinduşah Naxçıvani, Nəsirəddin Tusi, Qətran Təbrizi, Bəhmənyar, Mahmud Şəbüstəri və başqalarının müəllif hüquqlarının qorunmasını ortaya qoyan əlyazmaları bu günə qədər gəlib çatmışdır. Kitab tariximizin ilk mərhələsinə aid olan əlyazmalar ölkəmizdən başqa, dünyanın Amerika Birləşmiş Ştatları, Rusiya, Fransa, Almaniya, Vatikan, Polşa, Çexiya, Çin, Türkiyə, İran, Özbəkistan və başqa ölkələrində qorunub saxlanılmaqdadır. "Kitab", "Müəllif" və "Müəlliflik hüququ" anlayışları yaranan andan bir-biri ilə qırılmaz təmasda olub. Dahi Nizaminin "tükənməz mənəvi qida", Şekspirin "tacdan qiymətli", böyük Sabirin "ilk dostum", maarifçi-alim Zərdabinin "qiymətli dəfinə" adlandırdıqları kitab bilik mənbəyi olaraq qalmaqdadır. Dünya mədəniyyətinin inciləri sırasında Azərbaycanın "Kitabi-Dədə Qorqud" unu xüsusi qeyd etmək lazımdır.

İntibah və bilik mənbəyi olan klassik Azərbaycan kitabı xüsusilə orta əsrlərdə böyük şöhrət qazanmışdı. Sonrakı dövrlərdə də Azərbaycanın Naxçıvan, Ordubad, Bakı, Şamaxı, Gəncə, Bərdə, Şəki, Qarabağ və başqa bölgələrində yaradılan kitablar dərin məzmunu, dilinin bədiiliyi, tərtibatının gözəlliyi ilə seçilirdi. Kitab sənətkarlarımız xəttat Mirəli Təbrizi, Qazı Məhəmməd Bağır Ordubadi, Hacı Məhəmməd Naxçıvani, Hacı Hüseyn Naxçıvani, Əbdülbaqi Danişmənd, Qasım bəy Səhhaf və onlarla başqaları kitab mədəniyyətimizin formalaşmasında və inkişafında böyük xidmətlər göstərmişlər.

"Kitab nəşri hər bir ölkənin, xalqın mədəniyyətində, ümumiyyətlə, mədəni-ictimai həyatında çox görkəmli yer tutur. Ona görə də hər birimiz kitablara borcluyuq", – deyən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev milli sərvətimiz olan mədəniyyətimizi, ədəbiyyatımızı, kitab nəşrini, bir sözlə, xalqımızın mədəni səviyyəsini yüksək qiymətləndirmişdir.

Ötən əsrin 70-ci illərindən başlayaraq ulu öndərimizin rəhbərliyi ilə Azərbaycanda mətbəə və nəşriyyat sahələri yenidən qurulmuş, kitab nəşrinin kütləviliyini təmin etmək üçün mühüm tədbirlər həyata keçirilmiş, bu sahədə çalışan intellektual və yaradıcı insanlara hərtərəfli qayğı göstərilmişdir. Müstəqillik illərində də ulu öndər Heydər Əliyev tərəfindən kitab nəşri və müəlliflik hüququ sahəsində ardıcıl tədbirlər görülmüşdür. 1996-cı ildə "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", 1998-ci ildə "Kitabxana işi haqqında", 2000-ci ildə "Nəşriyyat işi haqqında", 2003-cü ildə "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" Azərbaycan Respublikası qanunlarının qəbul edilməsi ilə bu sahədə zəngin qanunvericilik bazası yaradılmışdır. Ölkəmizdə

Müəllif Hüquqları Agentliyi yaradılmış, Azərbaycan Respublikası "Ədəbi-bədii əsərlərin qorunması haqqında" Bern Konvensiyası və "Müəllif hüquqları haqqında" Ümumdünya Konvensiyasına qoşularaq geniş beynəlxalq əməkdaşlığa da başlamışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında, "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında", "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncamları, eləcə də Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 6 sentyabr 2017-ci il tarixli Fərmanı müəllif hüquqları sahəsində uğurlu və sistemli tədbirlərin həyata keçirilməsinə səbəb olmuşdur.

Müasir dövrdə kitab həm də hər bir xalqı beynəlxalq arenaya çıxaran və onu təbliğ edən bir vasitədir. Xalq bir çox hallarda dünya miqyasında öz yaradıcı şəxsiyyətlərinin əsərləri ilə tanınır. Bu gün Azərbaycanın tarixi, mədəniyyəti, musiqisi, xalçaları, muğamları, xalq yaradıcılığı, ədəbiyyatı, memarlığı, milli mətbəxi və geyimləri, eləcə də mədəni irsi haqqında nəşr olunan kitablar, elektron daşıyıcılar zəngin elmi və mədəni potensialımızın dünyada tanıdılması, xalqımızın müəlliflik hüququnun beynəlxalq aləmdə qorunması istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlərdir. Xalqımızın min illər boyu yaratdığı zəngin mədəniyyətinin və tarixinin ən gözəl inciləri YUNESKO tərəfindən bəşəriyyətin qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. YUNESKO-nun Təcili Qorunma Siyahısına salınmış "Tənzərə" və "Köçəri" yallıları bu qədim və nadir

sənətin də xalqımıza məxsusluğunun bir daha dünya ictimaiyyətinə çatdırılması baxımından böyük nailiyyətdir.

**II məruzəçi:** Qədim diyarımızda təhsil və elm müəssisələrində də kitabxanaların yenidən qurulması davamlı olaraq həyata keçirilir. Bu gün respublikada kitabxanaların maddi-texniki bazasının gücləndirilməsi ilə yanaşı, kitab fondlarının zənginləşdirilməsi istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. Uşaq və gənclərdə vətənpərvərlik, torpağa bağlılıq, ləyaqət, mərhəmət, xeyirxahlıq kimi mənəvi dəyərlərin inkişafında kitab əvəzsiz xəzinədir.

Həmçinin son illər Yazıçılar Birliyi üzvlərinin mindən artıq kitabı nəşr olunmuşdur. Bütün bunlar bir daha muxtar respublikada müəllif hüquqlarına və kitab işinə göstərilən qayğının bariz nümunəsidir.

Kitab bütün zamanlarda bəşəriyyətə gərək olub, insanlığın yoluna işıq salıb, gələcəkdə də xalqların tərəqqi və intibahına xidmət edəcəkdir.

Azərbaycan Respublikasında 23 Aprel - "Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü" 1997-cı ildən qeyd olunur.

Bu tədbirin keçirilməsində məqsəd kitabların insan həyatındakı böyük əhəmiyyətini vurğulamaq, müəlliflik hüququnun mədəni irsin yaranmasında və qorunub saxlanmasındakı rolunu göstərmək və davamlı iqtisadi inkişafda və informasiya cəmiyyətinin formalaşmasındakı əhəmiyyətini diqqətə çatdırmaq, əqli mülkiyyətin yaradıcılarına olan hörmət və ehtiramı nümayiş etdirməkdir.

Tarixən xalqımızın maddi və qeyri-maddi mədəni irsi saxtalaşdırılma və özgəninkiləşdirilmə təhlükələri ilə qarşılaşıb. Bu hal xüsusilə qeyri-maddi mədəni irsin başqa xalqlar tərəfindən mənimsənilməsi şəklində həyata keçirilib. Mədəni irsimizə qarşı yönəlmiş təhdidləri ermənilərin

timsalında daha çox görmək olar. Əsasən də şifahi xalq ədəbiyyatımızın populyar nümunələri, o cümlədən dastanlar, nağıllar, xalq musiqisi xəzinəsinə daxil olan xalq mahnılarımız, milli musiqi alətlərimiz, o cümlədən balaban, kamança, saz və s. Azərbaycan mətbəxinə daxil olan xörək növləri, Azərbaycan xalçaları mənimsənilir. Adları qeyd olunan mədəniyyət nümunələrinin, o cümlədən "Koroğlu" və "Aşıq Qərib" dastanlarının ermənilər tərəfindən mənimsənilərək özününküləşdirilməsinə həmişə cəhd edilib və hal-hazırda da davam etdirilir. Azərbaycan xalçaları İran xalçaları adı altında beynəlxalq sərgilərdə nümayiş etdirilir. Bundan başqa, Azərbaycanın məşhur xalq mahnısı "Sarı gəlin" beynəlxalq festivallarda erməni xalq mahnısı kimi təqdim edilir. Eyni vəziyyət Azərbaycan mətbəxinə məxsus olan xörəklər və musiqi alətlərinə aiddir. Azərbaycanın milli-mənəvi, mədəni dəyərlərinin oğurlanmasında, hər zaman olduğu kimi, ermənilər daha çox canfəşanlıq göstərir. Məsələn, dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun "O olmasın, bu olsun" musiqili komediyası əsasında çəkilmiş eyni adlı filmdəki hamam səhnəsində ifa olunan mahnının eləcə də Azərbaycan klassik musiqi sənətinin görkəmli nümayəndəsi Fikrət Əmirov "Qarabağ Azərbaycanın incisi" kompozisiyası "Artsax" kompozisiyası adı altında ermənilər tərəfindən oğurlanması deyilənlərə əyani sübutdur. Görünən odur ki, bədxah qonşumuz Azərbaycanın mədəni irsini, o cümlədən xalq mahnılarını, rəqslərini, bəstəkarlarımızın əsərlərini həmişə oğurlayıb. Tarixi Azərbaycan torpaqları üzərində yoxdan dövlət yaradan ermənilər indi də mədəni irsimizi mənimsəyib öz adına çıxarmağa çalışır. Ermənilərin bu riakar amallari həm də "Ədəbi və bədii əsərlərin qorunması haqqında" beynəlxalq Bern Konvensiyasının tələblərini pozur.

"Çap edilmiş sözün tarixi - insanlığın tarixidir. Şəxsiyyətin özünü təsdiqində və sosial islahatların həyata keçirilməsində kitabın təsir imkanlarının analoqu yoxdur. Şəxsi təəssuratları əks etdirərək və eyni zamanda dərin sosial təzahür forması olaraq, kitablar insanlar arasında, cəmiyyətlər daxilində, dövrlərin dialoqunun formalarının müxtəlifliyini təmin edir". Bunu YUNESKO-nun Baş direktoru İrina Bokova "Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü" ilə əlaqədar 2014-cü ildəki müraciətində qeyd etmişdir.

**III məruzəçi:** İlk dəfə olaraq müəllif hüquqları anlayışı Almaniyada meydana çıxmışdır. Əvvəllər yalnız ədəbiyyat sahəsinə aid edilən bu ifadə 1870-ci il iyunun 11-dən etibarən mülkiyyətin bütün formalarını birləşdirmişdir.

23 Aprel – dünya ədəbiyyatında simvolik tarixdir.

YUNESKO-nun 1996-cı il tarixli qərarı ilə hər il bütün dünyada 23 aprel dünya şöhrətli dramaturqlar Vilyam Şekspir (1564-1616), Migel de Servantes (1547-1616) və yazıçı-tarixçi İnka Qarsilaso de la Veqanın şərəfinə Beynəlxalq Kitab və Müəllif Hüquqları günü kimi qeyd edilir. Hər üç yazıçını onların ölüm günü - 23 aprel 1616-cı il tarixi birləşdirir. Bu tarix kitablara və müəlliflərə dünya miqyasında ehtiram göstərmək, hər kəsi bəşəriyyətin məkan və zaman sərhədlərini aşaraq ideyaları paylaşmaq üçün ən gözəl ixtiradır. Alimlər kitab oxumağın vacibliyinin 5 ən zəruri səbəbini də aydınlaşdırıblar. Birincisi, kitab oxumaq bütün xəstəliklərin 60%-nin, həmçinin insult və ürək-damar xəstəliklərinin səbəbi olan stressi aradan qaldırır. Sözsüz ki, həyatımızı stresslərdən qorumaq bizim əlimizdə deyil. Lakin kitab oxumaq stressin insan orqanizminə neqativ təsirini azaldır. İkincisi, kitab oxumaq beynin koqnitiv funksiyanı və yaddaşı yaxşılaşdırır. Üçüncüsü, kitab oxumaq yuxunun keyfiyyətini artırır. Yəni yuxululuqla yuxusuzluq arasındakı

keçidi yüngülləşdirir ki, bunu da smartfonlar haqqında demək olmaz. Dördüncüsü, kitab oxumaq sosial bacarıqları təkmilləşdirir. Mütaliəli insanlar yaxşı dərk edə və başqa insanların nə fikirləşdiklərini hiss edə bilirlər. Sonuncu və ən vacib səbəb isə odur ki, kitab oxumaq hər kəsin intellektual səviyyəsini artırır. Həftə ərzində 3,5 saatdan çox mütaliə ilə məşğul olan insanların erkən ölüm riski heç kitab oxumayanlara nisbətən 23% aşağı düşür.
Kitablara və müəlliflərə ehtiram məqsədi ilə təsis olunan Beynəlxalq Kitab və Müəllif Hüquqları günü həm də hamını, xüsusilə də gəncləri mütaliədən zövq almağa, bəşəriyyətin sosial və mədəni inkişafında əməyi olmuş sənətkarların əvəzsiz irsinə hörmətlə yanaşmağa çağırış günüdür.

*Kitabxanada 23 Aprel Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününü ilə əlaqədar “Kitablar haqqında maraqlı məlumat” adlı* ***oxucularla söhbət*** *keçirilə bilər. Söhbət zamanı metodist kitablar haqqında maraqlı faktları uşaqların nəzərinə çatdırır.*

**Metodist:** Kitablar ən qədim dövrlərdən bəri var olan və həyatımızın hər sahəsində ehtiyac duyduğumuz əsərlərdir. Əlindəki hər kitabın tarixi ilə maraqlanan oxucularımız üçün hazırladığımız bu yazıda kitablar haqqında bilinməyən maraqlı məlumatları əldə edəcəksiniz.

*Dünyanın ən uzun cümləsi*

Fransız yazıçı Viktor Hüqonun 1862-ci ildə qələmə aldığı “Səfillər” romanı dünya klassikasının şedevrlərindəndir . Romantik cərəyanın öncülərindən olan yazıçının eyni adlı əsəri bir çox film və tamaşaya çevrilmişdir. Kitabın üçüncü hissəsində üç səhifə davam edən bir cümlə vardır ki, birnəfəsə oxumaqla bitirmək mümkün deyil. 823 sözdən ibarət olan bu cümlə, indiyə qədər yazılmış ən uzun cümlə olaraq qəbul edilir.

*Dünyanın ən kiçik kitabı*

Dünyada ən kiçik kitab olaraq qəbul edilən "Dörd fəslin çiçəkləri", 22 səhifədən ibarətdir. 0.75 x 0.75 millimetrlik ölçüyə malik olan kitab Ginnesin Rekordlar Kitabına daxil edilmişdir. Yaponiyadakı "Toppan nəşriyyat" evi tərəfindən nəşr olunan kitab hazırda ölkəmizdə qorunmaqdadır. Əlbəttə ki, bu kitabı oxumaq üçün xüsusi mikroskop və ya lens tələb olunur.

*Dünyanın ən uzun romanı*

İndiyə qədər yazılmış ən uzun roman 13.095 səhifədən ibarətdir. 1649 və 1653-cü illər arasında çap edilən "Artamène ou le Grand Cyrus" adlı kitab 10 cilddən ibarət olub, ümumilikdə 2 milyona yaxın sözdən ibarətdir. Fransız yazıçlar Scudéry və Georges de Scudéry tərəfindən qələmə alınan əsər bu günə qədər yazılmış ən uzun roman hesab olunur.

*Xarici dillərə ən çox tərcümə edilən kitab*

Antoine de Saint-Exupéry-in 1943-cü ildə nəşr etdirdiyi "Balaca şahzadə"ni yəqin ki, aramızda oxumayan yoxdur. Bütün zamanların ən çox oxunan və ən yaxşıları arasında özünə yer edən kitab, həmçinin Le Monde-un 1000 kitabı siyahısında da yer almaqdadır. 7-dən 70-ə hər kəsə xitab edən kitab indiyə qədər 253 dil və ləhcəyə çevrilmişdir. "Balaca Şahzadə"ni isə bu yolda başqa bir nağıl kitabı olan Pinokyo izləməkdədir.

Əsərləri ən çox tərcümə edilən yazar - UNESCO-nun hazırladığı siyahıya əsasən, əsərləri ən çox tərcümə edilən yazıçı Aqata Kristidir. Yaratdığı Herkul Puaro xarakteri ilə nəfəsləri kəsən detektiv romanları yazan Kristinin kitabları dünyanın, demək olar ki, hər yerində oxunur. UNESCO-nun

1932-ci ildən bəri ərsəyə gətirdiyi bazaya əsasən, Aqata Kristinin kitablarının 7233 tərcüməsi edilib. Buradakı 7233 sayı çevrilmiş dilləri yox, kitabların neçə fərqli formada çevrilməsini göstərir.

*Dünyanın ən bahalı kitabı*

İndiyə qədər ən baha qiymətə satılan kitab Leonardo Da Vinçiyə məxsusdur. Da Vinçinin əlyazma kitabı olan "Codex Leicester" Bill Gates tərəfindən 48,4 milyon dollara alınıb. Dünyanın ən böyük dahiləri və elm adamlarından biri olan Leonardo Da Vinçi bu kitabında astronomiya, suyun hərəkəti, hidrologiya və geologiya sahələrində etdiyi araşdırmalardan bəhs etmişdir.

*İlk mətbəə*

Bir çox yenilik kimi ilk mətbəə də çinlilərin ixtirasıdır Çində yaranmış bu mətbəə ağac oyma və presləmə texnikasına əsaslanırdı. Yəni dünyanın ilk mətbəəsi hər hansı bir mexanikaya əsasən fəaliyyət göstərmirdi. Hərflərdən tək-tək istifadə olunması isə yenə də çinlilər tərəfindən 1040-cı illərdə yaranıb.

*Ən uzun vaxtda yazılan kitab*

Bizim bir nəfəsdə oxuduğumuz və kaş daha uzun olardı dediyimiz kitabların bəzisinin bir neçə günlük, bəzisinin isə illər çəkən yazılma tarixi vardır. Dünyanın ən uzun müddətdə yazılan kitabı J.R.R.Tolkien-in müəllifi olduğu "Üzüklərin hökmdarı" kitabıdır. Bu kitab nə az, nə çox düz 16 ilə qələmə alınıb.

*Ən qısa vaxtda yazılan kitab*

Ən uzun vaxtda yazılan kitabı dedik. İndi isə ən qısaya keçək.Ən çox sevilən və oxunan uşaq kitablarından olan "Zolaqlı pijamalı oğlan", sadəcə 2,5 gündə yazılıbdır. John Boyne tərəfindən qələmə alınan kitab 2,5 gündə tamamlan bu

roman indiyədək ən qısa müddətə yazılan romanları siyahısında ilk pilləyə yiyələnib.

*Kitabxanada 23 Aprel Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü ilə əlaqədar keçirilən bir sıra tədbirlərdən biri də "Kitablar ən yaxın dostunuz olsun" adlı* ***rəy sorğusudur.*** *Viktorina azyaşlı məktəblilər arasında keçirilir və məqsəd azyaşlı oxuculara kitaba maraq və oxu vərdişini aşılamaqdır. Tədbiri açıq elan edən kitabxanaçı ilk olaraq 23 Aprel Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününü ilə bağlı məktəblilərə məlumat verir.*

***Kitabxanaçı:*** Yaxşı kitab mehriban bir dost kimi yaxşı fikirlər və biliklər ilə dünyagörüşümüzü, düşüncəmizi zənginləşdirir. Kitablarla vaxt keçirdikdə özümüzü tək hiss etməyimiz mümkün deyil. "Yaxşı kitab çox qiymətli xəzinədir" deyirdi, Həsən bəy Zərdabi. Böyük şəxsiyyətlərin yazdıqları kitablar bizə daha yaxşı insan olmaq üçün kömək edir və bizi ruhlandırır. Kitablar, həmçinin bizə cəmiyyətə ən yaxşı şəkildə necə xidmət edə biləcəyimizi öyrədir. Kitab oxumaq tək qaldığımız zaman vaxtımızı səmərəli keçirməyimiz üçün ən yaxşı üsuldur. Biz özümüzü rahat hiss edə bilmək üçün də kitab oxuya bilərik.

Kitablar ən yaxın dostlarımızdır, çünki həyatda mükəmməl addımlar atmağımız üçün bizə ilham verirlər və bizə uğursuzluqlarımızdan qurtulmağa kömək edirlər. Yaxşı dostumuzdan olduğu kimi oxuduğumuz kitablardan da çox şey öyrənirik. Kitablar yaxşı və ya pis ola bilər. Dostlarımızı seçdiyimiz kimi, onları seçmək də bizim əlimizdədir. Yaxşı kitablar oxumaq bizi yaxşı, pis kitablar oxumaqsa bizi pis insana çevirə bilər. Eynən dostluq etdiyimiz insanlar kimi. Kitablarımız çətin zamanlarımızda, həyatımızın ən çətin günlərində hər zaman yanımızda olurlar. Kitablar bizə həyatda gözəl şeylərin arzusunda olmağı, ümidli olmağı

öyrədir. Müsbət yönlü düşüncə və dəyərlərdə yaşamağımıza kömək olur. Bəzi insanlar təbiəti, bəziləri isə kitabları sevir. Kitablar bizim təbiətdəki yol xəritəmizdir. Bir kitabın hər səhifəsi insanın ən yaxşı və müdrik fikirlərindən ibarət qeydlər toplusudur. Elə bir insan yoxdur ki, "kitabın xeyri nədir ?" sualına cavab verə bilməsin. Lakin çoxları bu sehrli əşyanın dəyərini bilmirlər.

Kitab insanın bəlkə də ən yaxın dostudur, əzizidir. Çox vaxt heç kimdən ala bilmədiyin məlumatları, sənə həyatda var olmaq üçün, düzgün yaşamaq və insanlarla münasibət qurmaq üçün lazım olan informasiyaları kitab verir. Hər bir insanın özünü dərk etdiyi gündən ilk dostu onun birinci kitabıdır.

Kitablar müxtəlifdir: dərs kitabları, bədii kitablar və s. Dərs kitabları ilə məktəbə gedən hər bir insan tanış olur. Hər bir bədii kitab isə bir insandır, bir insan taleyidir. Sən yeni kitab oxuduqca yeni insanla, insan taleyi ilə tanış olursan. Kitablarla tanış olduqca sən bir pillə qalxırsan və digər insanlardan üstün olursan.

Bununla bərabər ədəb-ərkan qaydalarını, gözəl maneraları öyrənmək üçün kitablara müraciət etmək olar. Kitabları oxuduqca insan oradakı ideala doğru addımlayır, özünü təkmilləşdirir, mənfi xasiyyətlərini unutmağa və pis vərdişlərdən əl çəkməyə çalışır. Məşhur rus yazıçısı M. Qorkiy demişdir: "Məndə olan bütün yaxşı keyfiyyətlərə görə kitablara borcluyam". Müxtəlif informasiya mənbələrinin olduğu müasir dövrdə sanki, kitabların dəyəri azalmışdır. Gəlin, buna yol verməyək. Gələcəkdə sağlam, savadlı, mədəni nəsillərin yetişməsi üçün kitabları qoruyaq, onlardan səmərəli istifadə edək.

*Məlumatdan sonra suallar yazılı və test şəklində iştirakçılara təqdim olunur.*

**Suallar:**

1. "Ümumdünya Kitab və Müəllif Hüquqları Günü" neçənci ildə rəsmi olaraq elan edilmişdir?

2. Bu əlamətdar tarix Azərbaycanda neçənci ildən qeyd edilir?

3. Əziz uşaqlar, kitab haqqında hikmətli sözlər, şeir və s. deyə bilərsinizmi?

4. Ən son oxuduğunuz kitab və ya kitabların adlarını sadalaya bilərsinizmi?

5. Dünya ədəbiyyatı nümayəndələrindən ən çox sevdiyiniz yazıçı və yazıçıların adlarını sadalayın.

6. Azərbaycan ədəbiyyatı nümayəndələrindən ən çox sevdiyiniz yazıçı və yazıçıların adlarını sadalayın.

7. "Müəllif hüquqları" anlayışı sizin üçün hansı mənanı kəsb edir?

8. İlk dəfə olaraq müəllif hüquqları anlayışı hansı ölkədə meydana çıxmışdır?

9. Nöqtələrin yerini şeirdən parçalarla tamamlayın.
   Ağaca çıxdım adamla,
   Bir nəlbəki badamla.

.........................
Hey danışır adama.

10. İlk mətbəə neçənci ildə və harada yaradılmışdır?

**Cavab:**

1. Kitab və kitab mütaliəsinin önəmini nəzərə alaraq YUNESKO 1995-ci il noyabrın 15-də Parisdə keçirilən 28-ci sessiyasında hər il aprel ayının 23-nü "Ümumdünya Kitab və Müəllif Hüquqları Günü" elan etmişdir.
2. Bu əlamətdar tarix neçənci ildən Azərbaycanda 1997-ci ildən başlayaraq hər il qeyd edilir?
3. ........
4. ........
5. ........
6. .........
7. Müəllif hüququ (copyright – ingiliscə hərfi mənası köçürmə hüququ deməkdir) – insanların elm, ədəbiyyat və incəsənət sahələrində əldə etdikləri yaradıcılıq nəticələrinin istifadəsinin hüquqi münasibətlərini tənzimləyən qaydadır. Müəllif hüquqlarının pozulması müəllif hüququ təsdiqlənmiş hər hansı bir mülkiyyətdən hüquq sahibinin icazəsi olmadan müəllif hüququ təsdiqlənmiş mülkiyyətin və ya işin təkrar istehsal, dəyişiklik edilmə kimi xüsusi haqlarını pozmaqla istifadəsini nəzərdə tutur.

8. "Müəllif hüquqları" anlayışı ilk dəfə olaraq Almaniyada meydana çıxmışdır. Əvvəllər yalnız

ədəbiyyat sahəsinə aid edilən bu ifadə 1870-ci il iyunun 11-dən etibarən mülkiyyətin bütün formalarını birləşdirmişdir.

9. Nə dili var, nə ağzı

10. Bir çox yenilik kimi ilk mətbəə də çinlilərin ixtirasıdır Çində yaranmış bu mətbəə ağac oyma və presləmə texnikasına əsaslanırdı. Yəni dünyanın ilk mətbəəsi hər hansı bir mexanikaya əsasən fəaliyyət göstərmirdi. Hərflərdən tək-tək istifadə olunması isə yenə də çinlilər tərəfindən 1040-cı illərdə yaranıb.

Əziz uşaqlar, bildiyiniz kimi kitabxanamız Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasıdır. Kitabxanamız dünya ədəbiyyatı nümunələri ilə yanaşı, Azərbaycan ədəbiyyatı nümayəndələrinin kitabları ilə də zəngindir. Diqqətinizə çatdıraq ki, müəssisəmiz tez-tez uşaq yazarlarla görüş keçirməklə yanaşı, onların müxtəlif adda kitablarını siz oxuculara təqdim edir. Kitabxanamıza abunə olaraq həmin kitabları oxuya bilərsiniz.

*Kitabxanada 23 Aprel Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü ilə əlaqədar "Kitaba məhəbbət, oxu mədəniyyəti" adlı* ***dəyirmi masa*** *keçirilə bilər. Söhbət zamanı 23 Aprel Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününü ilə bağlı oxuculara məlumat verilir. Məlumatdan sonra kitabxanaçı kitablar və müəlliflik hüququ, onun pozulması haqqında maraqlı faktları uşaqların nəzərinə çatdırır.*

**Kitabxanaçı:** Müəllif hüquqlarının pozulması müəllif hüququ təsdiqlənmiş hər hansı bir mülkiyyətdən hüquq

sahibinin icazəsi olmadan müəllif hüququ təsdiqlənmiş mülkiyyətin və ya işin təkrar istehsal, dəyişiklik edilmə kimi xüsusi haqlarını pozmaqla istifadəsini nəzərdə tutur.
Elektronik və audiovizual məhsulların icazəsiz təkrar istehsalı və yayılmasının ümumi adı piratlıq olaraq qəbul olunmuşdur (bu ifadənin tarixi ilk dəfə Daniel Defoenin 1703-cü ildə True-born Englishman əsərində "Bu Piratlar tərəfindən təkrarən çap olunurdu" cümləsini işlətməsilə başlanmışdır). Bu mənada qayda pozuntularınının "piratlıq" olaraq adlandırılması müəllif hüququnun yaranmasından bir qədər daha əvvəl baş vermişdir. Belə ki,1709-cu ildə yaranan və müəllif hüququyla bağlı ilk sayılan "Statue of Anne" fərmanına qədər 1557-ci ildə Stationer's Company of London şirkətinin Kral Lisenziyası alması nəşriyyat sahəsində bu şirkətə inhisar imkani yaratmışdı. 1603-cü ildə bu lisenziyadan kənardakı bütün fəaliyyətlər piratlıq olaraq tanınırdı.
Bu anlayışın istifadəsinin hüquqi bazasının yaranma tarixi elə həmin dövrlərə dayanır və günümüzə qədər daimi olaraq istifadə olunmaqdadır. Bir çox tənqidçilər bu tərz fəaliyyətlərin "piratlıq" adlandırılmasının aşağılayıcı oldugunu və haqsız olaraq onun bir çox daha ağır və pis əməllərlə bir tutulmasına qarşı olsalar da məhkəmələrdə müəllif hüquqlarının pozulması və "piratlıq" bir birini əvəz edə biləcək terminlər kimi işlədilir.
Bir çox hallarda müəllif hüququ sahibləri qayda pozuntularına cavab olaraq satılan DVD-lərin üzərində xəbərdarlıq qeydlərindən istifadə etsələr də, bu bir çox hallarda alıcının qanuni haqlarına uyğun gəlmir. Belə ki, ABŞ-da alınan bir DVD-nin dəyişdirilməsi, satılması və ya başqasına verilməsi qanuni sayılır.

Mətnlərin icazəsiz istifadəsi də müəllif hüquqlarının pozulması hesab olunur. İnternetdə müxtəlif mətnlərin müəllifin icazəsi olmadan bir internet saytından digərinə köçürülməsi olduqca geniş yayılmışdır. Roberta Beach Jacobson Copyrights and Wrongs (Müəllif hüquqları və xətalar) məqaləsində yazıçıların işlərinin saytlar tərəfindən uyğunsuz istifadəsini tənqid etmişdir. Maraqlısı budur ki, məqalə yüzlərlə müxtəlif saytlara köçürüldüyündən onların bir çoxu bu iş üzərində müəlliflik hüququna iddialıdır və ya məqaləni oxunması üçün müəyyən haqq tələb edirlər.

Tədbirin sonunda kitabxanaçı gələn qonaqlara kitablarla bağlı maraqlı məlumatlardan söhbət açdı.

1. Arxeloji qazıntılara əsasən ilk kitablar iki min il bundan əvvəl meydana çıxıb. Onlar ağac və mum üzərində yazılıb.

2. Bəzi alimlər ən qədim kitabı beş min il bundan əvvələ aid edirlər. Bu kitab Prissa tərəfindən papirus üzərində yazılıb.

3. Yer üzündə 130 milyona qədər kitab var. Bu say kitab nüsxələrinin deyil, sadəcə bütün janrlarda olan əsərlərin göstəricisidir.

4. Ən sirli kitab Voyniçin əlyazması hesab olunur. Bu kitab hələ də sirri açılmamış müxtəlif bitkilərdən bəhs edir. Kitab mövcud olmayan dildə yazılıb. Kitabda əks olunan bitkilərə isə Yer kürəsində rast gəlinməyib. Hazırda kitab haqqında ciddi müzakirələr gedir və müxtəlif fikirlər yürüdülür.

5. Leonardo da Vinçi tərəfində yazılan "Lester məcəlləsi" kitabı dünyanın ən bahalı kitablarından biridir. Bu kitab Bill Qeytsə 24 milyon dollara satılıb. Kitab barəsində maraqlı fakt odur ki, onu yalnız güzgüdə əks etdirib oxumaq olar.

6. Bir çoxlarına məlumdur ki, “Min bir gecə nağıl”ının ilkin versiyası Ələddin tərəfindən yazılıb. Kitabın müəllifi Ələddin ərəb deyil, çin əsilli olub.

7. Levis Kerolun müəllifi olduğu “Alisa möcüzələr diyarında” əsəri Çində qadağan olunub. Bunun səbəbi isə əsərdə danışan heyvanların olmasıdır.

8. Harvard Universitetinin məşhur kitabxanasında 4 ədəd kitab insan dərisindən hazırlanmış perqament üzərində yazılıb.

9. Şeksprin kitablarında sevgi sözü nifrət sözündən 10 dəfə daha çox işlənib.

10. “Robinzon Kruzo” əsərinin davamı var. Bu əsərdə də qəhrəman Rusiya ərazisində gəmi qəzasına düşür və uzun müddətdən sonra evinə dönür.

11. “Qulliverin Səyahəti” əsərində göy mexanikasının bəzi qanunları, xüsusilə, Marsın peyklərinin ölçüsü, planetlərin hərəkəti, astronomların kəşflərində 100 illər öncədən yazılıb.

12. Fəaliyyətə başlayandan bu günədək çap orqanları təxminən iki milyard kitab nəşr edib.

13. İlk ədəbi roman olan “Qendzi haqqında povest” Yaponiyada min il əvvəl yazılıb.

14. Dünyanın ən populyar kitabı Bibliyadır. İkinci kitab Mao Tsezuanın sitatlarından ibarət toplular, üçüncü kitab isə “Üzüklərin hökmdarı” əsəridir.

15. Ən çox kitab nəşr etdirən müəllif Barbara Kartlenddir. Ay ərzində iki romanı çap olunur.

**Ədəbiyyat siyahısı**

## Kitablarda

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm qanunvericiliyi toplusu : 2 cilddə. I cild. - Bakı : Avrasiya press, 2011. - 522 s.

**Umudlu. İ.**. Kitab nəşri bu gün : Azərbaycanda kitab nəşrinin monitorinqi. - Bakı : Əbilov, Zeynalov və oğulları, 2004. - 322 s.

## Dövrü Mətbuatda

"**Azərbaycan Respublikasının** Müəllif Hüquqları Agentliyi haqqında Əsasnamə" nin təsdiq edilməsi haqqında Azərbaycan Respubkikası Prezidentinin fərmanı // Azərbaycan. - 2005. - 3 sentyabr. - S. 1.

23 Aprel - Dünya Kitab və **Müəllif** Hüquqları Günüdür // Səs. - 2020. - 24 aprel. - № 68. - S. 12.

**Ağabalayeva S**. Problemlər...Problemlər...Qayğılar : Redaksiya - müəllif münasibətləri // Azərbaycan : jurnal. - 2021. - № 10. - S. 202-206.

**Ağalaroğlu M**. İnformasiya cəmiyyətində müəlliflik və digər əqli mülkiyyət hüquqlarının mədəni, iqtisadi və hüquqi əhəmiyyəti // İki sahil. - 2017. - 2 iyun. - № 97. - S. 22.

**Azərbaycan Respublikasının** Müəllif Hüquqları Agentliyi haqqında əsasnamə // Azərbaycan. - 2005. - 3 sentyabr. - S. 4.

**Bayramova Z**. 23 Aprel Dünya Kitab və Müəlliflik Hüququ Günüdür // Səs. - 2018. - 21 aprel. - № 77. - S. 12.

**Beynəlxalq seminar:** "Müəllif hüququ və yayım" // Ədəbiyyat qəzeti. - 2009. - 6 fevral. - S. 2.

Beynəlxalq seminarda kitabxana və təhsil müəssisələrinin **müəllif** hüquqları müzakirə edilir // Respublika. - 2015. - 1 dekabr. - № 264. - S. 5.

**Ələddinqızı N**. 23 Aprel Dünya Kitab və Müəlliflik Hüququ Günündür : Əqli və maddi- mədəni oğurluqlarla, tarixi-coğrafi uydurmalarla özlərinə yalançı tarix formalaşdıran ermənilər // Səs. - 2022. - 23 aprel. - № 71. - S. 7.

**Əliyev V**. İnformasiya cəmiyyətində müəlliflik və digər əqli mülkiyyət hüquqlarının mədəni, iqtisadi və hüquqi əhəmiyyəti // Mədəniyyət. - 2017. - 31 may. - № 41. - S. 12.

**Əliyeva İ**. 23 Aprel Ümumdünya Kitab və Müəlliflik Hüququ Günüdür : Dövrlər, insanlar mədəniyyətlər arasında mənəvi körpü // Azərbaycan : qəzet. - 2022. - 23 aprel. - № 84. - S. 7.

**Əliyeva İ**. Elmi-texniki tərəqqi əqli mülkiyyət hüquqlarının qorunmasına yeni yanaşma tələb edir : 23 aprel Ümumdünya Kitab və Müəlliflik Hüququ Günüdür // Azərbaycan. - 2014. - 23 aprel. - № 82. - S. 7.

**Hadıyev E**. Sosial epidemiya : 23 aprel Dünya Kitab və Müəllif Hüquqları Günüdür // Azərbaycan : qəzet. - 2018. - 22 aprel. - № 90. - S. 4.

**İmanov K**. Kitab - keçmişlə gələcək arasında körpü : Azərbaycan Respublikası Müəllif Hüquqları agentliyinin sədri Kamran İmanovla müsahibə / söhbətləşdi G. Mustafayeva // Mədəniyyət.az. - 2016. - № 4. - S. 64-67.

Kitablar milli mədəniyyətin dirçəliş resursudur : Ümumdünya Kitab və **Müəlliflik** hüququ Günü münasibətilə Muzey Mərkəzində növbəti konfrans keçirilmişdir // Azərbaycan. - 2012. - 24 aprel. - № 88. - S. 11.

**Mehdiyeva G**. Dəyirmi masa: "Kitabxanaların elektron resursları və müəllif hüquqları problemləri" : Aprelin 30-da Xəzər Universitetinin Kitabxana-İnformasiya Mərkəzində "Kitabxanaların elektron resursları və müəllif hüquqları" mövzusunda dəyirmi masa keçirildi // Xəzər. - 2014. - № 329. - S. 14.

**Məhərrəmova T**. Müəllif hüquqlarımızı necə qoruyaq? : Bu sahədə maariflənməyə və lazımi addımları vaxtında atmağa ehtiyac var // Kaspi. - 2017. - 24 may. - № 91. - S. 11.

**Məhərrəmova T**. Müəllif hüququmuzu necə qoruyaq? : Mediada yazı oğurluğu fəlakətli həddə çatıb // Kaspi. - 2017. - 17 may. - № 86. - S. 11.

**Mehparə.** "Azərbaycan kitabını və müəlliflərini dünyada tanıtmağa çalışırıq" : 23 aprel "Dünya kitab və müəllif hüquqları günü" dür // Mədəniyyət. - 2012. - 20 aprel. - № 27. - S. 15.

**Mehparə.** 23 aprel Dünya Kitab və Müəllif hüquqları günüdür // Mədəniyyət. - 2011. - 22 aprel. - № 28. - S. 6.
Müəlliflik **hüququna həsr** olunmuş beynəlxalq seminar keçirilir // Mədəniyyət. - 2010. - 11 iyun. - № 39. - S. 3.

**Nərimanoğlu M**. Oxumaq və oxutmaq istəyirsənsə... : 23 aprel Kitab və Müəllif Hüquqları Günüdür // Azərbaycan. - 2010. - 23 aprel. - № 86. - S. 7.

**Rzalı R**. Dünya muzeylərindəki sənət incilərimiz bəzən başqa ölkələrin adı ilə təqdim olunur : 23 aprel Ümumdünya Kitab və Müəllif Hüquqları Günüdür // Azərbaycan. - 2012. - 22 aprel. - № 87. - S. 7.

**Salmanlı R**. Milyonları bir araya gətirən missiya : 23 aprel Müəllif Hüquqları Günüdür // Azərbaycan : qəzet. - 2019. - 23 aprel. - № 87. - S. 4.

**Tağıbəyli V**. Müəllif hüquqlarının mədəni irsimizin qorunması üçün əhəmiyyəti // Həftə içi. - 2017. - 26 may. - № 93. - S. 3.

# Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Aynurə Əliyeva**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**